**Noyabr ayının 10-u Azərbaycan xalqı üçün yeni Qələbə bayramı günü oldu. Bu Azərbaycanın dövlətçilik tarixində yaşadığı yurd sevgisini və müzəffər Azərbaycan Ordusunun bütün dünyaya nümayiş etdirdiyi gücünü bir daha sübut etdi.**



# Qələbəmiz mübarək!

30 ildir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunmasına yönəlik fəaliyyətimiz sentyabr ayının 27-dən başlayan əks-hücum əməliyyatları ilə 44 günlük Vətən Müharibəsində Şuşanın işğaldan azad olunması ilə bitdi. Belə ki, müzəffər Azərbaycan Ordusu erməni silahlı qüvvələri və Qarabağda formalaşan terror qruplaşmalarını darmadağın etdi.

Ermənistanın Rusiya Federasiyasına rəsmən müraciət etməsi Rusiyanın bilavasitə iştirakı ilə Azərbaycan-Ermənistan arasında doqquz bəndi özündə əks etdirən bəyanatın imzalanması ilə nəticələndi.

Bu bəyanat qan tökülməsinin qarşısının alınması, insanların yaşamaq hüququnun təmin olunması, eləcə də Qarabağda Azərbaycanın suverenliyinin bərpa olunması üçün çətinliklə əldə olunan davamlı qələbədir.

Xüsusilə, 30 illik işğal altında olan Qarabağın hər bir rayonunun noyabr ayının sonunadək Ermənistan Respublikasının silahlı qüvvələrindən tamamilə təmizlənməsi Qarabağ ərazisində yaşayan və yaşayacaq Azərbaycan vətəndaşlarının burada Azərbaycan sərhədləri və qanunları çərçivəsində yaşamağa başlamalarını təmin etməklə, qısa müddət ərzində Azərbaycan Respublikasının Konstitusiyasının, qanunlarının, Ali Baş Komandanın əmrlərinin, həmçinin Azərbaycanın ərazi vahidi olaraq bütün hüquq və normalarına uyğun idarəçiliyin təkmilləşməsinə imkan verəcəkdir.

Bəyanat, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumlarının iştirakı ilə sülhün, əmin-amanlığın qorunmasına yönəlik sülhməramlı mərkəzlərin təşkil olunmasına, hərbi əsrlərin, girovların, habelə cəsədlərin mübadiləsinin həyata keçirilməsinə şərait yaradacaqdır. Bu bəyanat beynəlxalq hüquq və prinsiplərə, ədalətli, uzunmüddətli sülh müqaviləsinin imzalanmasına təkan verəcəkdir. Bu, doğrudan da, Azərbaycan xalqının, bütün azərbaycanlıların həyatlarında yaşadıqları ən sevincli, ən qürurlu hadisədir.

Bu gün Azərbaycan xalqının dəmir yumruq kimi bir olmasının nəticəsidir ki, Ali Baş Komandan bu gücü düşmənin başına zərbə kimi endirdi. Qürurlu və güclü xalqımız Prezident İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşərək yeni, şanlı tariximizin yazılmasını davam etdirəcək və qüdrətli Azərbaycan uğrunda mübarizliyini əzmlə davam etdirəcəkdir.

***Məzahir ƏFƏNDİYEV,***
***Azərbaycan Respublikasının***
***Milli Məclisinin deputatı***

Xalq qəzeti 2020.- 12 noyabr.- S.8.